# ADA Universitetinin tələbələri İtaliyada olublar

ADA Universitetinin tələbələrlə iş üzrə dekanı Turqut Mustafayevin rəhbərliyi ilə bu ali təhsil ocağının 40 nəfərdən ibarət tələbə heyəti İtaliyada səfərdə olub.

Səfər çərçivəsində tələbələr İtaliyanın Xarici İşlər Nazirliyində, La Sapienza Universitetində və bu təhsil ocağının nəzdində fəaliyyət göstərən Azərbaycan üzrə Araşdırmalar və Tədqiqatlar Mərkəzində, "İstituto Affari İnternazionali" (İAİ) "beyin mərkəzi"ndə bir sıra görüşlər keçiriblər.



İtaliya Xarici İşlər Nazirliyinin idarə rəisi Maurizio Qreqanti ilə keçirilmiş görüşdə Azərbaycan-İtaliya əlaqələrinin müxtəlif istiqamətləri, münasibətlərimizin inkişaf perspektivləri barədə tələbələrə məlumat verilib. Bildirilib ki, İtaliya Azərbaycan ilə müxtəlif sektorlarda qarşılıqlı əməkdaşlığın dərinləşdirilməsində maraqlıdır.

Azərbaycanın İtaliyadakı səfirliyinin əməkdaşları ilə görüşdə iki ölkənin gənclərinin birgə təşəbbüsü ilə həyata keçirilmiş layihələrin səfirlik tərəfindən dəstəkləndiyi diqqətə çatdırılıb. Qeyd edilib ki, Azərbaycanın və İtaliyanın ali təhsil müəssisələri arasında da yaxın əlaqələr mövcuddur və bu, ölkələrimiz arasında təhsil sektorunda münasibətlərin genişlənməsinə töhfə verməkdədir.





ADA Universitetinin tələbələri İtaliya-Azərbaycan Ticarət Palatasının rəhbəri Manuella Traldi ilə görüşdə qurumun fəaliyyəti, hər iki ölkədən olan iş adamlarının qarşılıqlı səfərlərinin təşkili istiqamətində gördüyü işlər, Azərbaycanda mövcud biznes mühitinin italiyalı sahibkarların maraq dairəsində olması barədə məlumatlandırılıblar.

Səfər çərçivəsində ADA Universitetinin nümayəndə heyəti, həmçinin İAİ-nin direktoru, professor Ettore Qreko, TAP layihəsinin İtaliya üzrə ofisinin nümayəndələri, Azərbaycan-İtaliya Gənclər Assosiasiyasının və Azərbaycan Tələbə Şəbəkəsinin üzvləri ilə görüşüb.

Görüşlərdə hər iki ölkənin gənclərinin müxtəlif sahələrdə birgə təşəbbüslərə maraq göstərmələri, qarşılıqlı təcrübə mübadiləsi, eyni zamanda, ölkələrimiz arasında tərəfdaşlığın genişləndirilməsi, bu baxımdan TAP layihəsinin önəmi və digər məsələlər diqqət mərkəzində olub.

Səfər zamanı İtaliya parlamentinin binası və Xarici İşlər Nazirliyindəki incəsənət qalereyası ilə tanışlıq ADA Universitetinin tələbələrində böyük maraq yaradıb.

**AZƏRTAC**

## *Neft sənayesi xəbərləri*

### Ötən il 501 çoxmərtəbəli binaya təbii qaz verilmişdir

"Azəriqaz" İstehsalat Birliyi çoxmərtəbəli binalara təbii qazın verilməsi istiqamətində fəaliyyətini davam etdirir.

Görülmüş işlərin nəticəsidir ki, Birlik 2015-ci ilin dekabr ayında hüquqi və fiziki şəxslərin müraciətlərini araşdıraraq, müvafiq sənədləri təqdim olunan 69 çoxmərtəbəli binaya təbii qazın verilməsini təmin etmişdir. Qeyd edək ki, həmin binalarda ümumilikdə 3235 ailə yaşayır. Ümumiyyətlə, ötən il ərzində təbii qazla təchiz edilmiş hündürmərtəbəli binaların sayı 501 olmuşdur ki, həmin binalarda da 11327 mənzil vardır.

"Azəriqaz" İB təbii qazın satışı ilə məşğul olan bir qurum kimi zəruri sənədləri təqdim etmiş, bütün normativ-texniki və təhlükəsizlik tələblərinə cavab verən istənilən çoxmərtəbəli binanın ən qısa müddətdə "mavi yanacaq"la təmin olunmasında maraqlıdır.

### 2015-ci ildə BTC kəməri ilə 28,8 milyon tondan artıq Azərbaycan nefti nəql olunmuşdur

2015-ci ilin dekabr ayı ərzində BTC əsas ixrac boru kəməri vasitəsilə 2 milyon 461 min 645 ton Azərbaycan nefti nəql olunmuşdur.

Ötən ilin yanvar-dekabr aylarında isə kəmərlə 28 milyon 835 min 543 ton neft ötürülüb. Ümumiyyətlə, kəmər istifadəyə verilən gündən 2016-cı il yanvar ayının 1-ə qədər BTC-yə 292 milyon 675 min 389 ton neft vurulub.

Bundan başqa, 2015-ci ilin dekabr ayında BTC kəməri ilə 316 min 340 ton Türkmənistan və Qazaxıstan nefti nəql olunub. Ümumiyyətlə, 2015-ci il ərzində BTC kəməri ilə nəql olunmuş Qazaxıstan və Türkmənistan neftinin həcmi 5.2 milyon ton təşkil etmişdir.

### Ceyhan limanından 29,1 milyon ton neft dünya bazarlarına çıxarılmışdır

2015-ci ilin dekabr ayı ərzində 2 milyon 739 min 625 ton Azərbaycan nefti Ceyhan limanından dünya bazarlarına çıxarılmışdı.

Bu həcmin 1 milyon 848 min 765 tonunu Azərbaycan Respublikası Dövlət Neft Fondunun nefti təşkil etmişdir. Ötən ilin yanvar-dekabr aylarında Ceyhan limanından ixrac olunmuş neftin həcmi 29 milyon 079 min 649 ton təşkil etmişdir.

Ümumiyyətlə, BTC istismara verilən gündən 2016-cı il yanvar ayının 1-ə qədər Ceyhan limanından 291 milyon 018 min 739 ton Azərbaycan nefti dünya bazarlarına yola salınmışdır.

**T.ƏBDÜLƏZİZOĞLU,**
**"Respublika".**